*UOT 37.01*

***İlham Ağaqardaş oğlu Cavadov***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini,*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*https://orcid.org/0009-0004-8522-320X*
*E-mail:i.cavadov@arti.edu.az*
*https://doi.org/10.69682/arti.2026.93(3).21-24*

# TƏHSİLİN KEYFİYYƏTİNİN TƏMİN OLUNMASININ NƏZƏRİ, PEDAQOJİ VƏ PRAKTİK ƏSASLARI: STRATEGİYALAR VƏ TƏTBİQ İMKANLAR

***Ilham Agagardash Javadov***
*deputy director of the Institute of Education of the Republic of Azerbaijan,*
*doctor of philosophy in pedagogy, associate professor*

# THEORETICAL, PEDAGOGICAL AND PRACTICAL FOUNDATIONS OF ENSURING QUALITY EDUCATION: STRATEGIES AND IMPLEMENTATION OPPPRTUNITIES

***Ильхам Агагардаш оглу Джавадов***
*заместитель директора Института Образования Азербайджанской Республики,*
*доктор философии по педагогике, доцент*

# ТЕОРЕТИЧЕСКИЕ, ПЕДАГОГИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ ОСНОВЫ ОБЕСПЕЧЕНИЯ КАЧЕСТВА ОБРАЗОВАНИЯ: СТРАТЕГИИ И ВОЗМОЖНОСТИ ВНЕДРЕНИЯ

**Xülasə.** Məqalədə müasir dövrün çağırışları baxımından təhsilin keyfiyyətinin təmin olunması baxımından məktəbin funksiyaları, təlim-tərbiyə prosesinin müasir tələblərə uyğun qurulması, mənfi amillərin aradan qaldırılması, təhsil işçilərinin fəaliyyətinin və şagirdlərin nailiyyətlərinin obyektiv qiymətləndirilməsi məsələləri araşdırılır. Təhsil yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır, həm də intellektual, mənəvi və sosial inkişafı təmin edən kompleks prosesdir. Təlim metodları və məzmun müasir yanaşmalar əsasında təkmilləşdirilməli, pedaqoji fəaliyyət strateji planlaşdırma, monitorinq və idarəetmə mexanizmləri ilə dəstəklənməlidir. Azərbaycan təhsil sistemində aparılan islahatlar ölkənin sosial-iqtisadi inkişaf strategiyası ilə bağlıdır və rəqabətqabiliyyətli, yaradıcı və yüksək bilikli gənc nəslin yetişdirilməsini hədəfləyir. Həmçinin, məqalədə təhsilin keyfiyyətinin elmi əsaslara söykənən, sistemli və vahid yanaşma ilə təmin olunmasının əhəmiyyəti vurğulanır. Keyfiyyət yalnız təlim nəticələrinin qiymətləndirilməsi ilə məhdudlaşmır, həm də pedaqoji kadrların peşəkar inkişafı, tədris metodları, idarəetmə və resursların səmərəli istifadəsini əhatə edir. Təhsilin keyfiyyətinin yüksəldilməsi strateji planlaşdırma, innovativ yanaşmalar və müasir monitorinq mexanizmlərinin tətbiqi ilə mümkün olur və bu sahədə elmi və praktik tədqiqatların əhəmiyyəti xüsusi vurğulanır.

***Açar sözlər.*** *keyfiyyətin təmin olunması, keyfiyyət göstəriciləri, təhsilin keyfiyyəti, keyfiyyətin idarə edilməsi, keyfiyyətin qiymətləndirilməsi*

**Abstract.** The article examines the functions of the school in terms of ensuring the quality of education in terms of the challenges of the modern era, the issues of organizing the educational process in accordance with modern requirements, eliminating negative factors, and objective assessment of the activities of educational personnel and students' achievements. Education is not limited only to the transfer of knowledge, but is also a complex process that ensures intellectual, moral and social development. Training methods and content should be improved based on modern approaches, and pedagogical activity should be supported by strategic planning, monitoring and management mechanisms. The reforms carried out in the Azerbaijani education system are related to the country's socio-economic development strategy and aim to raise a competitive, creative and highly educated young generation. The importance of ensuring the quality of education with a scientific, systematic and integrated approach is also emphasized. Quality is not limited

only to the assessment of learning outcomes, but also includes the professional development of pedagogical staff, teaching methods, management and efficient use of resources. Improving the quality of education is possible through strategic planning, innovative approaches, and the application of modern monitoring mechanisms, and the importance of scientific and practical research in this area is particularly emphasized.

***Keywords:*** *quality assurance, quality indicators, quality of education, quality management, quality assessment*

**Аннотация.** В статье рассматриваются вопросы обеспечения качества образования с точки зрения вызовов современности, функции школы, организация учебно-воспитательного процесса в соответствии с современными требованиями, устранение негативных факторов, а также объективная оценка деятельности работников образования и достижений учащихся.

Образование не ограничивается лишь передачей знаний, а представляет собой комплексный процесс, обеспечивающий интеллектуальное, нравственное и социальное развитие личности. Методы и содержание обучения должны совершенствоваться на основе современных подходов, а педагогическая деятельность – поддерживаться стратегическим планированием, мониторингом и управленческими механизмами.

Реформы, проводимые в системе образования Азербайджана, связаны со стратегией социально-экономического развития страны и направлены на воспитание конкурентоспособного, творческого и высокообразованного молодого поколения. Также подчеркивается важность обеспечения качества образования на научной основе, с системным и единым подходом.

Качество образования не ограничивается только оцениванием результатов обучения, но включает профессиональное развитие педагогических кадров, методы преподавания, управление и эффективное использование ресурсов.

Повышение качества образования возможно посредством стратегического планирования, внедрения инновационных подходов и современных механизмов мониторинга, при этом особое значение имеют научные и практические исследования в данной области.

***Ключевые слова:*** *обеспечение качества, показатели качества, качество образования, управление качеством, оценивание качества*

Cəmiyyət üçün hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşdırılması müasir təhsil sisteminin əsas məqsədlərindən biri hesab olunur. Bu məqsədə nail olmaq üçün məktəbin funksiyalarının yenidən müəyyənləşdirilməsi, təlim-tərbiyə prosesinin müasir tələblərə uyğun qurulması, təhsil prosesinə mənfi təsir göstərən amillərin aradan qaldırılması və şagirdlərin təlim nailiyyətlərinin obyektiv qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda təhsil xidmətlərinin səmərəliliyinin müəyyənləşdirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi və müəllimlərin peşəkar fəaliyyətinin təkmilləşdirilməsi də təhsil sisteminin qarşısında duran əsas vəzifələrdəndir. Bu kimi məsələlər uzun illərdir ki, təhsil işçilərini, pedaqoji sahənin tədqiqatçılarını, metodistləri və idarəetmə sahəsində çalışan mütəxəssisləri daim düşündürən aktual problemlərdən biri olmuşdur və bu gün də öz aktuallığını qoruyub saxlayır.

Müasir dövrdə təhsil sistemi yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır. Təhsil insanın intellektual, mənəvi və sosial inkişafına xidmət edən kompleks bir prosesdir. Bu baxımdan məktəbin əsas funksiyalarından biri də şəxsiyyətin hərtərəfli inkişafına şərait yaratmaq, onun yaradıcı potensialını üzə çıxarmaq və müasir cəmiyyətin tələblərinə uyğun bilik, bacarıq və səriştələrin formalaşdırılmasını təmin etməkdir. Bu məqsədlə təlim prosesinin məzmunu və təşkilati formaları daim təkmilləşdirilməli, tədris metodları yenilənməli və pedaqoji fəaliyyət müasir yanaşmalar əsasında qurulmalıdır.

XXI əsrdə təhsil sahəsində baş verən sürətli dəyişikliklər və qloballaşma prosesləri təhsil sisteminin inkişafına yeni tələblər irəli sürür. İnformasiya cəmiyyətinin formalaşması, texnologiyaların sürətli inkişafı və əmək bazarının dəyişən tələbləri təhsilin keyfiyyətinə daha yüksək standartlar qoyur. Bu baxımdan Azərbaycanda təhsil sahəsində həyata keçirilən islahatlar ölkənin sosial-iqtisadi inkişaf strategiyası ilə sıx bağlıdır və əsas məqsəd müasir dünyaya inteqrasiya edən, yüksək bilik və bacarıqlara malik, rəqabətqabiliyyətli gənc nəslin yetişdirilməsindən ibarətdir.

Hazırda Azərbaycan pedaqoji elmində və pedaqoji praktikada “təhsilin keyfiyyəti” anlayışına müxtəlif yanaşmalar mövcuddur. Bəzi tədqiqatçılar təhsilin keyfiyyətini təlim nəticələri-

nin səviyyəsi ilə əlaqələndirir [6], digərləri isə bu anlayışı daha geniş kontekstdə – təhsil mühitinin təşkili, pedaqoji fəaliyyətin səmərəliliyi, idarəetmə mexanizmləri [1-2] və təhsil prosesinin ümumi nəticələri ilə əlaqələndirirlər. Bu yanaşmaların müxtəlifliyi isə təhsilin keyfiyyətinin monitorinqi və qiymətləndirilməsi prosesində müəyyən çətinliklərin yaranmasına səbəb olur. Ona görə də təhsilin keyfiyyətinin müəyyənləşdirilməsi üçün elmi əsaslara söykənən, vahid və sistemli yanaşmanın formalaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Təhsilin keyfiyyətinin təmin olunması və yüksəldilməsi təhsil müəssisələrinin fəaliyyətinin əsas prioritet istiqamətlərindən biri hesab olunur. Bu istiqamətdə aparılan işlər yalnız təlim nəticələrinin qiymətləndirilməsi ilə məhdudlaşmamalı, həm də təhsil prosesinin bütün komponentlərini – məzmunu, metodları, idarəetmə mexanizmlərini, maddi-texniki bazanı və pedaqoji kadrların peşəkar inkişafını əhatə etməlidir. Təhsil müəssisələrində keyfiyyətin təmin olunması məqsədilə daxili və xarici monitorinq sistemlərinin yaradılması, təhsil prosesinin müntəzəm qiymətləndirilməsi və əldə olunan nəticələrin təhlili xüsusi əhəmiyyət daşıyır.

Təhsil sahəsində aparılan islahatların uğuru, ilk növbədə, cəmiyyətdə baş verən sosial-iqtisadi və mədəni proseslərlə sıx bağlıdır. Təhsil sistemi cəmiyyətin inkişaf səviyyəsinə uyğun olaraq daim yenilənməli və müasir tələblərə cavab verən mexanizmlərlə zənginləşdirilməlidir. Bu baxımdan təhsil müəssisələrinin inkişaf strategiyasının hazırlanması və həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir [3]. İnkişaf strategiyası təhsil müəssisəsinin fəaliyyət istiqamətlərini müəyyənləşdirir, mövcud problemlərin həlli yollarını göstərir və təhsil prosesinin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Keyfiyyət təsadüfi şəkildə yaranan bir göstərici deyil. O, məqsədyönlü və sistemli fəaliyyətin nəticəsi kimi formalaşır. Bu baxımdan strateji planlaşdırma təhsil sistemində fəaliyyət göstərən hər bir müəssisənin inkişafının əsas mexanizmlərindən biri hesab olunur. Güclü və səmərəli strateji planlaşdırma təhsil müəssisələrində idarəetmənin təkmilləşdirilməsinə, təlim prosesinin daha səmərəli təşkilinə və təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə imkan yaradır. Strateji planlaşdırma eyni zamanda təhsil müəssisələrinin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirməyə, mövcud resurslardan səmərəli istifadə etməyə və innovativ yanaşmaların tətbiqinə şərait yaradır.

Bütün bunlar göstərir ki, təhsilin keyfiyyətinin təmin olunması müasir təhsil sisteminin əsas vəzifələrindən biridir və bu proses kompleks yanaşma tələb edir. Təhsil sistemində keyfiyyətin yüksəldilməsi yalnız pedaqoji fəaliyyətin təkmilləşdirilməsi ilə deyil, həm də səmərəli idarəetmə, strateji planlaşdırma və müasir monitorinq mexanizmlərinin tətbiqi ilə mümkün olur. Bu baxımdan təhsilin keyfiyyəti probleminin elmi və praktiki aspektdən araşdırılması pedaqoji elmin mühüm istiqamətlərindən biri kimi çıxış edir və təhsil sisteminin davamlı inkişafına xidmət edir.

Təhsil müəssisələrinin fəaliyyətinin keyfiyyətinin təmin olunmasında işçilərin, xüsusilə pedaqoji işçilərin peşə fəaliyyətinin səmərəliliyi əsas rol oynayır. Təhsil müəssisələrində işçilərin fəaliyyətinin qiymətləndirilməsi üçün müxtəlif göstəricilər tətbiq olunur. Rəhbərlik üçün bu göstəricilər arasında təhsil alanların fərdi nailiyyətlərinin dinamikası və məktəb daxilində pedaqoji işçilərlə qarşılıqlı fəaliyyətin təşkili yer alır. Pedaqoji işçilər üçün isə fərdi və qrup layihələrinin həyata keçirilməsi, sosial fəaliyyətlər, fərdi nailiyyətlərin monitorinqi, valideynlərlə qarşılıqlı əlaqələrin təşkili, şagirdlərin olimpiada və müsabiqələrdə iştirakı və əsas təhsil proqramının hazırlanması və həyata keçirilməsində iştirak kimi göstəricilər nəzərdə tutulur. Bu göstəricilər pedaqoji işçilərin fəaliyyətini qiymətləndirməyə və təhsilin keyfiyyətini ölçməyə imkan verir.

Statistik göstəricilər pedaqoji işçilərin fəaliyyətinin kəmiyyət ölçüləri ilə təsvirini təmin edir və təhsil prosesi nəticələrinə dair obyektiv məlumat yaradır. Bu göstəricilər vasitəsilə pedaqoji işlərin peşəkarlıq səviyyəsi, onların işinin səmərəliliyi və təhsil alanların nailiyyətləri barədə məlumat əldə etmək mümkündür. Bununla belə, yalnız kəmiyyət göstəricilərinə əsaslanan qiymətləndirmə təhsilin keyfiyyətini artırmaq üçün kifayət etmir. Əsas problemlərdən biri statistik göstəricilər ilə təhsil keyfiyyəti arasında birbaşa əlaqənin olmamasıdır. Optimal səviyyədə kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyən edilməməsi və əmək haqqının hesablanmasında sadələşdirilmiş alqoritmlərin tətbiqi də əhəmiyyətli çətinliklər yaradır.

Keyfiyyətin idarə edilməsində statistik yanaşmanın tətbiqi sahəsində öncül tədqiqatçılar

Uolter Şuxart [5] və Edvard Deminqin [4] işləri xüsusilə əhəmiyyətlidir. Onlar göstərmişdir ki, yalnız kəmiyyət göstəricilərinə əsaslanan işçilərin fəaliyyətinin qiymətləndirilməsi təhsil təşkilatlarında mənfi nəticələr yarada bilər.

Buradan da göründüyü kimi, beynəlxalq təcrübədə də, yalnız kəmiyyət göstəricilərinə əsaslanan işçilərin qiymətləndirilməsi təşkilat üçün mənfi nəticələr doğura bilər. Səmərəli qiymətləndirmə həm kəmiyyət, həm də keyfiyyət göstəricilərini, işçinin peşə bacarıqlarını və təhsil alanların nailiyyətlərini əhatə etməlidir.

Azərbaycan təhsil sistemində pedaqoji işçilərin fəaliyyətinin qiymətləndirilməsi üçün müəyyən edilmiş normativ-hüquqi baza və statistik göstəricilər səmərəli qərarvermə üçün baza rolunu təmin edir. Özünüyoxlama göstəriciləri tədris prosesinin təşkilati və maddi-texniki təminatı, təhsil alanların bilik və bacarıqlarının səviyyəsi, məktəbəqədər və ümumi təhsil müəssisələrində keyfiyyətin monitorinqini əhatə edir. Statistik göstəricilər təhsil müəssisələrinin fəaliyyətinin səmərəliliyini qiymətləndirmək, reytinqləri müəyyən etmək və idarəetməni optimallaşdırmaq üçün əsas rol oynayır.

Məktəb mühitinin bütün səviyyələrində təhsil və təlimin keyfiyyətinin yüksəldilməsi üçün kurikulumun tətbiqi ilə yanaşı, ixtisaslı və motivasiyalı müəllimlərin fəaliyyətinə üstünlük verilməlidir. Müasir məktəblərdə əlavə sahələr, o cümlədən idman, incəsənət və musiqi, şagirdlərin fərdi bacarıqlarını inkişaf etdirməyə xidmət etməli, müvafiq avadanlıq və müəllim resursları təmin edilməlidir.

Aparılmış araşdırmalar nəticəsində bir daha sübut olunur ki, müasir praktikada "təhsilin keyfiyyəti" anlayışı iki komponentdən ibarətdir: təhsil müəssisələrinin texnoloji və təşkili fəaliyyəti, həmçinin təhsil alanların əldə etdiyi bilik, bacarıq və sırıştələr. Bu yanaşma təhsil keyfiyyətinin həm şərtlərini, həm də nəticələrini əhatə etməyə imkan verir. Hazırkı idarəetmə və monitorinq sistemləri üçün kəmiyyət göstəricilərini keyfiyyət parametrləri və pedaqoji strategi-yalarla inteqrasiya etmək prioritet istiqamətdir.

Beləliklə, işçilərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi yalnız statistik göstəricilərə əsaslanmaqla yetərli deyil. Səmərəli qiymətləndirmə sistemi həm kəmiyyət, həm keyfiyyət ölçülərini, həm də təhsil alanların nailiyyətlərini nəzərə almalıdır. Bu yanaşma Azərbaycan təhsil sistemində normativ-hüquqi baza və praktik tədbirlərlə birləşdirilərək təhsil keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

**Problemin aktuallığı.** Təhsil sistemində keyfiyyətin təmin olunması və təhsil işçilərinin fəaliyyətinin obyektiv qiymətləndirilməsi cəmiyyətin rəqabətqabiliyyətli, yüksək bilik və bacarıqlara malik nəslin yetişdirilməsi üçün əsas şərtdir. Təhsilin keyfiyyətinə təsir edən amillərin çoxşaxəli olması, həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinin inteqrasiya olunmuş qiymətləndirilmə mexanizmlərinin zəruriliyini aktuallaşdırır.

**Problemin elmi yeniliyi.** Aparılmış elmi-nəzəri təhlil əsasında təhsil işçilərinin fəaliyyətinin qiymətləndirilməsi üçün kəmiyyət və keyfiyyət göstəricilərini inteqrasiya olunmuş model təklif edilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə təhsil tədqiqatçıları, doktorantlar, magistrantlar və təhsili idarəedənlər üçün faydalı elmi-metodik baza rolunu oynaya bilər.

## Ədəbiyyat


1. Cavadov İ.A. Müəllimin pedaqoji fəaliyyətinin və peşəkarlıq səviyyəsinin təhsilin keyfiyyətinə təsiri // Bakı: ARTİ-nin Elmi əsərləri, – 2026. № 1, –s. 8-14.
2. İlyasov M. İ. İnnovasiyalı təhsil mühiti məktəbdə təlim müvəffəqiyyətinin yüksəldilməsi amili kimi // – Bakı: ARTİ-nin Elmi əsərləri, – 2024. № 6, –s. 41-47.
3. Javadov I.A. General pedagogıcal problems of plannıng the actıvıtıes of general educatıonal ınstıtutıons // Materials of the international scientific and practical conference "Psychology in the Central Asian region: current state and development prospects" at the National Pedagogical University of Uzbekistan named Nizami – Tashkent, –March 28 2026. –p.59-69
4. Deming, W. E. *Improvement of quality and productivity through action by management.* Journal of Quality Technology, –1991. 23(3), – p. 95-111.
5. Shewhart, W. A. *The control chart and the economic design of control charts. The Bell System Technical Journal, –1924. 3*(1), – p. 3-16.
6. Schleicher, A. World Class: How to Build a $21^{st}$ - Century School System. – Paris: OECD Publishing. – 2018. – 297 p.


**Redaksiyaya daxil olub:** 08.04.2026